Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2026-cı il "12" may tarixli 142 nömrəli Qərarla **bağlanılmışdır.**

**Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2026–2028-ci illər üçün**

# BAŞ KOLLEKTİV SAZİŞ

Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (bundan sonra – Tərəflər) Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Beynəlxalq Əmək Təşkilatının konvensiyalarına, digər beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunvericiliyinə əsaslanaraq, 2026–2028-ci illər üçün sosial-iqtisadi və əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş (bundan sonra – Saziş) bağlayırlar.

Tərəflər hesab edirlər ki, Azərbaycan Respublikasında uğurla həyata keçirilən islahatlar, sosialyönlü və dünya təsərrüfat sisteminə inteqrasiya olunan milli iqtisadiyyatın formalaşması, makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun və regionların inkişafının sürətləndirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi ölkədə yoxsulluq və işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, əhalinin məşğulluğunun təmin olunmasına, yeni iş yerlərinin açılmasına, gəlirlərin artırılmasına və vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən sosial-iqtisadi siyasətdir və bu hədəflərin reallaşdırılması Sazişin prioritet məqsədlərini təşkil edir.

Saziş sosial tərəfdaşlıq sisteminin tərkib hissəsidir və sahə (tarif) sazişlərinin işlənilməsi və bağlanılması üçün əsas təşkil edir.

Tərəflər qarşılıqlı əlaqələrin sosial tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdirilməsinə, sosial-əmək münasibətlərinin sosial dialoq, kollektiv müqavilələr və sazişlər vasitəsilə tənzimlənməsinə çalışacaqlarını və Sazişlə müəyyən edilən öhdəlik və sövdələşmələrə riayət edəcəklərini bəyan edirlər.

## 1. İqtisadi siyasət sahəsində tərəfdaşlıq

1.1. Tərəflər hesab edirlər ki, yaxın gələcəkdə dövlətin sosial-iqtisadi siyasəti iqtisadi inkişafın dayanıqlılığının, istehsal proseslərinin modernləşdirilməsinin və rəqabət qabiliyyətinin yüksəldilməsi, innovasiya fəallığının və insan kapitalına investisiyaların stimullaşdırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, yeni layiqli iş yerlərinin yaradılması, yoxsulluğun azaldılması və əhalinin rifahının artırılması əsasında təmin edilməsinə istiqamətləndirilməlidir.

1.2. Bu məqsədlə Tərəflər aşağıdakı öhdəlikləri öz üzərlərinə götürürlər:

1.2.1. işğaldan azad edilmiş ərazilərdə bərpa, dayanıqlı məşğulluq, əmək hüquqlarının qorunması, təhlükəsiz əmək şəraiti və sosial-iqtisadi reinteqrasiyanı dəstəkləmək, sənaye, aqrar, xidmət və digər sahələrdə yeni iş yerlərinin yaradılmasını təşviq etmək;

1.2.2. milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə qəbul edilmiş strategiyalar, dövlət proqramları və strateji yol xəritələrində nəzərdə tutulmuş qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafını davam etdirmək;

1.2.3. iqtisadiyyatın, o cümlədən xidmət sahələrinin modernləşdirilməsinə kömək göstərmək;

1.2.4. iqtisadiyyatın innovativ inkişaf modelinə keçidini sürətləndirmək;

1.2.5. iqtisadiyyatın yüksək texnoloji və infrastruktur sahələrinin inkişaf etdirilməsinə diqqəti artırmaq;

1.2.6. iqtisadiyyatın prioritet sahələrinin dəstəklənməsi üzrə kompleks tədbirləri həyata keçirmək;

1.2.7. sosial-iqtisadi inkişafın və dövlət büdcəsinin ortamüddətli proqnozlaşdırma sistemini təkmilləşdirmək, onun keyfiyyətini artırmaq;

1.2.8. milli inkişaf prioritetlərinin "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik"dən irəli gələn məqsəd, hədəf və göstəricilərinə uyğunlaşdırılması prosesinin həyata keçirilməsini sürətləndirmək, bu prosesdə regionların iştirakını gücləndirmək və uğurlu nümunələr yaratmaq üçün model regionlar formalaşdırmaq;

1.2.9. bazar iqtisadiyyatı şəraitində istehsal həcminin artırılmasında və yeni iş yerlərinin yaradılmasında əsas amil olan mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün dövlətin maliyyə dəstəyini davam etdirmək, bu dəstəyi daha səmərəli təşkil etmək məqsədilə dövlət-sahibkar münasibətlərinin digər institusional mexanizmlərini və dövlət satınalmalarında onların iştirakını təşviq edən qanunvericilik və tənzimləmə çərçivəsini daha da təkmilləşdirmək;

1.2.10. yerli məhsulun istehsal həcmini, əməyin səmərəliliyini, malların keyfiyyətini və rəqabət qabiliyyətini yüksəltmək məqsədilə yerli istehsalçılara hərtərəfli yardımı artırmaq, qanunvericilik və beynəlxalq hüquq normaları əsasında daxili və xarici bazarlarda ölkənin yerli istehsalçılarının mənafelərini müdafiə etmək, istehsal olunmuş hazır məhsulun dünya bazarlarına ixracını stimullaşdıran tədbirlər sistemini gücləndirmək, bu sahədə hesabatlılığın təkmilləşdirilməsi üçün "Xarici ölkələrə ixrac missiyalarının və Azərbaycan ərazisinə alıcı missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı beynəlxalq sertifikat almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanının icrası barədə hökumət tərəfindən illik hesabatların Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyaya (bundan sonra – Üçtərəfli Komissiya) təqdim edilməsini təmin etmək;

1.2.11. "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin "heç kimin geridə qalmaması" prinsipinə əsaslanaraq ictimai maarifləndirmənin aparılması, maraqlı tərəflərin, o cümlədən sosial tərəfdaşların, vətəndaşların, vətəndaş cəmiyyətinin, biznes sektorunun və medianın geniş formada cəlb edilməsini davam etdirmək;

1.2.12. iqtisadiyyatın bütün sahələrinin rəqəmsallaşdırılması ilə bağlı tədbirləri davam etdirmək;

1.2.13. qeyri-formal iqtisadiyyatın leqallaşdırılması istiqamətində tədbirləri həyata keçirmək, qeyri-formal iqtisadiyyatdan formal iqtisadiyyata keçid zamanı Beynəlxalq

Əmək Təşkilatının tövsiyələrini, habelə dünyanın qabaqcıl ölkələrinin təcrübəsini öyrənmək;

1.2.14. korrupsiya əleyhinə fəaliyyəti gücləndirmək;

1.2.15. əhalinin, o cümlədən gənclərin və qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün səyləri artırmaq, bu istiqamətdə müştərək layihələr həyata keçirmək;

1.2.16. təbii inhisarçıların xidmətlərinə və məhsullarına qoyulan qiymətlərə (tariflərə) yenidən baxılması prosesində üçtərəfli məsləhətləşmələrdən istifadə etmək;

1.2.17. Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi şərtlərinin sadələşdirilməsi ilə bağlı tədbirlər görmək;

1.2.18. institusional, idarəetmə və struktur islahatlarını davam etdirmək;

1.2.19. inflyasiyanın məqbul səviyyədə saxlanılması məqsədilə müvafiq tənzimləmə üsullarından fəal istifadə etmək;

1.2.20. ölkənin qeyri-neft sektoruna xarici investisiyaların miqyasını daha da genişləndirmək məqsədilə xarici investorlar üçün stimullaşdırıcı mexanizmlər üzrə təkliflər hazırlamaq;

1.2.21. idxalı əvəz edəcək və ixracyönlü məhsulların istehsalını və ixracını stimullaşdıran tədbirləri həyata keçirmək;

1.2.22. ölkə iqtisadiyyatının qeyri-neft sektorunun, o cümlədən turizmin inkişafını davam etdirmək;

1.2.23. mənzil-kommunal təsərrüfatı sahəsində islahatları gücləndirmək və bu sahədə çalışan işçilərin əməkhaqlarının ölkə üzrə orta aylıq əməkhaqqı səviyyəsinə yaxınlaşdırılması istiqamətində tədbirləri davam etdirmək;

1.2.24. MDB ölkələrində valyutaların alıcılıq qabiliyyətinin pariteti əsasında beynəlxalq müqayisələrin aparılmasını nəzərdən keçirmək;

1.2.25. ixracyönümlü məhsulların istehsalının artırılmasına və ixrac potensialının gücləndirilməsinə nail olmaq üçün sənaye parkları və məhəllələrinin, texnologiyalar parklarının, eləcə də aqroparkların sayının artırılması istiqamətində səyləri davam etdirmək;

1.2.26. "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli, həmçinin "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 yanvar tarixli 883 nömrəli sərəncamlarının icrası istiqamətində birgə səylər göstərmək;

1.2.27. ölkənin qida təhlükəsizliyi sahəsində fəaliyyətin müasirləşdirilməsi və gücləndirilməsi məqsədilə beynəlxalq standartlara uyğun beynəlxalq akkreditasiyalı laboratoriyaların fəaliyyətini və qabaqcıl metodların tətbiqini həyata keçirmək;

1.2.28. qida təhlükəsizliyi üzrə ictimai nəzarət mexanizmlərini təkmilləşdirmək;

1.2.29. qida təhlükəsizliyi təminatı sisteminin müvafiq beynəlxalq təşkilatların tələblərinə uyğunlaşdırılması, qida məhsulların təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsi, əhalinin sağlam qidalanmasının təmin edilməsi istiqamətində aparılan işləri davam etdirmək;

1.2.30. infrastruktur layihələri çərçivəsində kənd yollarının təmiri və yenidən qurulması işlərini davam etdirmək;

1.2.31. subsidiyaların verilməsi prosesini təkmilləşdirmək, sığortaolunma mexanizminin yaxşılaşdırılması istiqamətində görülən işləri davam etdirmək;

1.2.32. bələdiyyələrin maliyyə bazasının möhkəmləndirilməsi və bələdiyyə müəssisələrinin yaradılmasına dövlətin maliyyə dəstəyini davam etdirmək;

1.2.33. bələdiyyə institutlarının təkmilləşdirilməsi, bələdiyyə mülkiyyətinin artırılması və inkişaf etdirilməsi məqsədilə bələdiyyələrin inzibati ərazilərinin elektron xəritələrinin verilməsi prosesinin yekunlaşdırılmasını sürətləndirmək;

1.2.34. mikro, kiçik və orta sahibkar və fermerlərin məlumatlandırılması və inkişaf etdirilməsi məqsədilə ödənişsiz formada keçirilən müxtəlif treninq, seminar və tədbirlərin effektivliyini artırmaq;

1.2.35. ərzaq və qeyri-ərzaq mallarının keyfiyyətinin yüksəldilməsi və müvafiq standartlara cavab verilməsi ilə bağlı dövlət nəzarətini artırmaq;

1.2.36. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in həyata keçirilməsi istiqamətində birgə səylər göstərmək;

1.2.37. aqrar sektorda, xüsusilə mövsümi işlərdə çalışanların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı könüllü sığorta mexanizmlərinin əlçatanlığını genişləndirmək,

1.2.38. Ümumdünya Ticarət Təşkilatına (ÜTT) qəbulla bağlı danışıqlarda yerli kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının maraqlarının müdafiəsi istiqamətində işləri davam etdirmək;

1.2.39. kənd əhalisinin qeyri-kənd təsərrüfatı sahələrində məşğulluğunun stimullaşdırılması, gəlir əldəetmə imkanlarının yaxşılaşdırılması və məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə alternativ fəaliyyət sahələrini inkişaf etdirmək;

1.2.40. maliyyə-kredit sistemində şəffaflığın qorunması üçün dövlət və ictimai nəzarəti gücləndirmək;

1.2.41. dağ çaylarında sel sularının effektiv idarə olunması, kənd yerlərinə və ətraf mühitə dağıdıcı təsirlərin minimuma endirilməsi üçün innovativ tədbirlər həyata keçirmək;

1.2.42. kənd təsərrüfatının dayanıqlı inkişafının və ərzaq təhlükəsizliyinin təmin edilməsi, bu sahədə informasiya-məsləhət xidmətlərinin və kadr potensialının gücləndirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının topdan və pərakəndə satış bazarlarına çıxış imkanlarının genişləndirilməsi, ekoloji tələblərə uyğun istehsalın stimullaşdırılması, ailə kəndli təsərrüfatlarının və kooperativlərin inkişafı, mövsümi işçilərin hüquqlarının qorunması və qeyri-formal məşğulluğun aradan qaldırılması, gənclərin və qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması ilə bağlı tədbirlər həyata keçirmək;

1.2.43. yeni nəqliyyat dəhlizləri, tranzit imkanları kontekstində ölkənin tranzit və logistika potensialının artırılması istiqamətində kompleks tədbirlər həyata keçirmək.

1.3. Tərəflər iqtisadiyyatın bütün sahələrində Ümumi Daxili Məhsulun real artım göstəricilərinin proqnozlaşdırılmasını zəruri hesab edirlər.

## 2. Əməyin ödənilməsi, əhalinin gəlirləri və həyat səviyyəsi

2.1. Tərəflər işçinin əmək hüququnu təmin edən kompleks tədbirlərin işlənilməsini və həyata keçirilməsini, real əməkhaqqının artırılmasını, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasını və gəlirlər siyasətinin təkmilləşdirilməsini zəruri hesab edirlər.

2.2. Bu məqsədlə Tərəflər əməyin təşkilinin təkmilləşdirilməsi, işçilərin ixtisas dərəcələrinin artırılması, əməyin məhsuldarlığının yüksəldilməsi məqsədilə aşağıdakı öhdəlikləri öz üzərlərinə götürürlər:

2.2.1. Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq çərçivəsində "2025–2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın icrası istiqamətində tədbirlər görmək;

2.2.2. dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin əməkhaqlarının artırılması, xüsusilə əməkhaqları vahid tarif cədvəli üzrə ödənilən işçilərin aylıq tarif (vəzifə) maaşlarının artırılması və məhsuldar əməyin təşviqinə yönəldilmiş əməkhaqqı sisteminin inkişafı üzrə mexanizmlərin formalaşması istiqamətində tədbirlər görmək;

2.2.3. qeyri-formal əmək münasibətlərinin qarşısını almaq məqsədilə işçiləri əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işə cəlb edən və onlara qeyri-rəsmi ödənişlər verən işəgötürənlər üzərində sosial tərəfdaşların birgə nəzarətini gücləndirmək;

2.2.4. müəssisə və təşkilatlarda əmək şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan işlərə diqqəti artırmaq;

2.2.5. təhsil sahəsində səriştə və nəticəəsaslı diferensiallaşdırılmış əməkhaqqı sisteminin yaradılması üzrə mexanizmləri təkmilləşdirmək;

2.2.6. istehsal olunan məhsulun maya dəyərində əməyin ödənilməsinin payına dair təhlillər aparmaq;

2.2.7. əməyinin ödəniş sistemini cinsindən asılı olmayaraq bərabər dəyərli əməyə görə bərabər haqq verilməsi prinsipi əsasında təkmilləşdirmək;

2.2.8. minimum istehlak səbətinin hesablanmasına dair məsləhətləşmələr aparmaq;

2.2.9. minimum əməkhaqqı məbləğinin mərhələlərlə artırılması istiqamətində işləri davam etdirmək və minimum əməkhaqqının ölkə üzrə orta əməkhaqqına nisbətini Avropa Sosial Xartiyasının tələblərinə uyğunlaşdırılması istiqamətində səylər göstərmək;

2.2.10. minimum saatlıq əməkhaqqının tətbiq edilməsi ilə bağlı qanunvericiliyə dəyişikliyin təsdiq edilməsinə nail olmaq;

2.2.11. dövlət adından yaradılan publik hüquqi şəxslərdə çalışan işçilərin əməyinin ödənilməsinin dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına maliyyələşdirilməsinin optimal sistemini yaratmaq;

2.2.12. əmək qanunvericiliyi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində işləri davam etdirmək.

## 3. Əmək bazarının inkişafı və əhalinin məşğulluğunun təminatları

3.1. Tərəflər hesab edirlər ki, iqtisadiyyatın modernləşdirilməsi və innovasiyalı inkişafı yüksəkixtisaslı işçilərə tələbatın formalaşdırılması ilə yanaşı, təhlükəsiz əmək şəraiti, layiqli və yüksək məhsuldarlıqla səciyyələnən səmərəli iş yerlərinin yaradılması ilə müşayiət olunmalıdır. Bu proseslər əhalinin məşğulluğu və insan resurslarının inkişafı sahəsində sosial tərəfdaşların qarşılıqlı əməkdaşlığı şəraitində aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilməklə dəstəklənməlidir:

3.1.1. əmək və məşğulluq sahəsində dövlət siyasətinin səmərəliliyini artırmaq, beynəlxalq standartlara və milli prioritetlərə əsaslanaraq qanunvericiliyi təkmilləşdirmək;

3.1.2. əmək münasibətləri, dövlət sosial sığorta sistemində fərdi uçot və məşğulluq xidmətləri sahələrində rəqəmsal idarəetmənin tətbiqi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işləri davam etdirmək;

3.1.3. əmək bazarında işçi qüvvəsinin keyfiyyətini inkişaf edən iqtisadiyyatın tələblərinə uyğunlaşdırmaq, müasir tələblərə cavab verən rəqabətədavamlı kadr potensialını formalaşdırmaq istiqamətində həyata keçirilən tədbirləri davam etdirmək, həmçinin mövcud informasiya sisteminin əhatə dairəsini genişləndirməklə onun əhatəsinə əmək bazarının monitorinqi və proqnozlaşdırılması üzrə funksiyaları daxil etmək;

3.1.4. əmək münasibətlərinin əsassız olaraq mülki-hüquqi müqavilələrlə rəsmiləşdirilməsi hallarının qarşısının alınması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi işlərini davam etdirmək;

3.1.5. əmək qanunvericiliyinə dövlət və ictimai nəzarətin həyata keçirilməsində profilaktik fəaliyyəti və onlayn nəzarət mexanizmlərini gücləndirmək;

3.1.6. işçilərin hüquqlarının və mənafelərinin gözlənilməsi məqsədilə işəgötürənin təşəbbüsü ilə istehsalın səmərələşdirilməsi, əməyin təşkilinin təkmilləşdirilməsi,

müəssisənin ləğv edilməsi, işçilərin sayının və ya ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq işçilərin sərbəstləşdirilməsi zamanı, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, müvafiq həmkarlar ittifaqı orqanlarına qabaqcadan (azı 3 ay əvvəl) yazılı məlumat verilməsini təmin etmək;

3.1.7. əmək ehtiyatlarının səmərəli istifadəsini təmin etmək, əhalinin məşğulluq və sahibkarlıq imkanlarını genişləndirmək, inklüziv məşğulluğu stimullaşdırmaq, layiqli əməyi dəstəkləmək, işçi qüvvəsinin rəqabət qabiliyyətinin artırılması istiqamətində tədbirlər həyata keçirmək;

3.1.8. əhalinin məşğulluq tədbirlərində əhatəliliyini və ünvanlılığını təmin etmək, bu sahədə sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxış imkanlarını yaratmaq, şəhər və regionlarda əmək bazarının genişləndirilməsinə xidmət edən innovativ mexanizmlər və elektron infrastruktur yaratmaq;

3.1.9. dövlət məşğulluq xidmətlərinin keyfiyyətini artırmaq, institusional strukturu təkmilləşdirmək;

3.1.10. əmək bazarında rəqabətqabiliyyətli kadr potensialının formalaşdırılması məqsədilə kadr hazırlığını işəgötürənlərin tələblərinə uyğunlaşdırmaq, peşə və kvalifikasiya standartları əsasında səriştəəsaslı müasir təhsil proqramlarını (kurikulumları) hazırlayıb tətbiq etmək;

3.1.11. işçilərin əlavə təhsil müəssisələrində peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, yeni ixtisasa yiyələnməsi və ixtisasının artırılması işini təşviq etmək;

3.1.12. müasir təminatlı və yeni məzmun əsasında işsiz və işaxtaran şəxslər üçün peşə hazırlığı mərkəzləri yaratmaq, şəbəkəni genişləndirmək;

3.1.13. qeyri-formal və informal üsullarla əldə olunmuş və tanınması nəzərdə tutulan kvalifikasiyaların sayını artırmaq;

3.1.14. əmək münasibətlərinin leqallaşdırılması sahəsində elektron nəzarət sisteminin tətbiqi istiqamətində işləri davam etdirmək;

3.1.15. sosial tərəfdaşlar cəlb olunmaqla, özünüməşğulluq proqramlarında xidmət və istehsal sahələrinə üstünlük verməklə onun əhatə dairəsini genişləndirmək;

3.1.16. qadınların, xüsusilə kənd yerlərində əmək bazarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə onlar üçün əmək bazarında ən çox tələb olunan peşə və ixtisaslar üzrə peşə hazırlığı kurslarını təşkil etmək;

3.1.17. sosial cəhətdən həssas əhali qrupları, o cümlədən cəzaçəkmə müəssisələrindən azad edilmiş, valideyn himayəsindən məhrum olan internat tipli xüsusi ümumtəhsil məktəblərini bitirmiş, əlilliyi olan işaxtaranların (bundan sonra – imtiyazlı işaxtaranlar) əmək bazarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində işləri davam etdirmək;

3.1.18. imtiyazlı işaxtaranların işə götürülməsini stimullaşdırmaq məqsədilə işəgötürənlərə münasibətdə güzəştlərin tətbiq edilməsi imkanlarını araşdırmaq;

3.1.19. əlilliyi olan şəxslər üçün xüsusiləşdirilmiş təlim proqramlarının tətbiqi vasitəsilə peşə reabilitasiya sisteminin təkmilləşdirilməsi üzrə işləri davam etdirmək;

3.1.20. regionlarda əmək bazarları arasında fərqlərin aradan qaldırılması məqsədilə şəhər və rayonlarda məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin fəaliyyətinin səmərəliliyini artırmaq, onlara zəruri metodoloji dəstək göstərmək;

3.1.21. peşə və kvalifikasiya standartlarının sayını artırmaq, onların hazırlanmasında iştirak edən işəgötürənlərin əhatə dairəsini genişləndirmək;

3.1.22. əməkçi miqrantların hüquqlarının müdafiəsi üzrə dövlətlərarası əməkdaşlığı həyata keçirmək, ölkələrarası sazişlərin bağlanılmasını davam etdirmək;

3.1.23. əmək və məşğulluq sahəsində qərarların qəbul edilməsində həm aidiyyəti dövlət orqanları, həm də sosial tərəfdaşlarla əlaqələri gücləndirmək;

3.1.24. rəqəmsal (mobil) tətbiqlər üzərindən xidmətlər göstərən şəxslərin hüquqi vəziyyətinin müəyyən edilərək "işçi" anlayışının geniş şərh olunması əsasında onların əmək qanunvericiliyinə uyğun müdafiəsinin, sosial təminat sisteminə cəlb olunmasının,

minimum əməkhaqqı, iş və istirahət vaxtı rejimi, əməyin mühafizəsinin təmin olunması istiqamətində məqsədyönlü işlər görmək;

3.1.25. dövlət və qeyri-dövlət qurumlarının təkliflərini nəzərə almaqla əmək bazarının tələblərinə uyğun kadr hazırlığının proqnozlaşdırılması sisteminin yaradılması istiqamətində vahid proqram formalaşdırmaq, proqrama könüllü ödənişli məşğulluq təcrübələri, xüsusilə natamam iş vaxtı, çevik iş qrafikləri və sosial qruplar üçün uyğunlaşdırılmış distant iş yerlərinin təşviqi ilə bağlı müddəalar əlavə etmək;

3.1.26. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müəssisə və təşkilatlarda əlilliyi olan şəxslərin işlə təmin edilməsi ilə bağlı kvota üzrə tələblərə əməl edilməsini və kvota üzrə müəyyən edilmiş iş yerlərinə əlilliyi olan şəxslərin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq qurumlarının göndərişi ilə işə qəbul edilməsini təmin etmək, habelə sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin yaradılması sahəsində tədbirlər görmək;

3.1.27. əlilliyi olan şəxslərin özünüməşğulluğunun təşkili istiqamətində beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirmək;

3.1.28. sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin, o cümlədən əlilliyi olan şəxslərin kvota üzrə müəyyən olunmuş iş yerləri ilə təmin edilməsinə nəzarəti gücləndirmək;

3.1.29. inklüziv məşğulluğun və əlilliyi olan şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi, onların əmək bazarına bərabərhüquqlu inklüzisiyası istiqamətində investisiya proqramları tətbiq etmək;

3.1.30. işçilərin sosial müdafiəsini gücləndirmək məqsədilə işsizlikdən sığorta sisteminin təkmilləşdirilməsi istiqamətində işlər aparmaq;

3.1.31. əmək bazarında peşə bacarıqlarının tanınmasını təmin etmək məqsədilə Milli Mikroixtisas və Sertifikat Sisteminin yaradılması və bu sistem çərçivəsində verilən mikrosertifikatların əməkhaqqı və xidmət illəri üzrə stimullaşdırma mexanizmlərində nəzərə alınması üçün tədbirlər görmək.

3.2. Bununla əlaqədar Tərəflər aşağıdakı öhdəlikləri öz üzərlərinə götürürlər:

3.2.1. gənclərin məşğulluq imkanlarını artırmağa, onların kənd yerlərində çalışmasını həvəsləndirən imtiyazlar sisteminin təkmilləşdirilməsinə, əmək şəraitinin yaxşılaşdırılmasına, həyat səviyyəsinin yüksəldilməsinə, tələbə və şagirdlərin, gənc işçilərin və mütəxəssislərin sosial müdafiəsinin gücləndirilməsinə istiqamətləndirilən tədbirləri həyata keçirmək;

3.2.2. gənclərin məşğulluğunun təmin edilməsi üçün təcrübə və şagirdlik sisteminin tətbiqi və bu müddətlərin yalnız əmək fəaliyyəti zamanı iş stajı kimi tanınması məqsədilə qanunvericiliyə dəyişiklik layihəsi hazırlamaq;

3.2.3. gənclərin əmək bazarına daha rahat inteqrasiyası üçün “İlk iş yeri” proqramını işləyib hazırlamaq, həmin proqram çərçivəsində işəgötürənlərə əlavə güzəştlərin təqdim edilməsi qaydalarını müəyyənləşdirmək;

3.2.4. ordudan tərxis olunmuş gənclərin əvvəlki iş yerlərinə və vəzifələrinə bərpa olunmasına nəzarəti gücləndirmək, onların peşələrinə uyğun müvafiq işlə təmin olunmasına köməklik göstərilməsi istiqamətində tədbirlər görmək;

3.2.5. sosial tərəfdaşların əmək qanunvericiliyinin tələblərinə riayət olunmasına nəzarətini gücləndirmək;

3.2.6. kənd təsərrüfatı sahəsində ixtisaslı kadr hazırlığının, o cümlədən gənclərin kənd təsərrüfatı təmayüllü ixtisas və texniki peşələr üzrə hazırlığının gücləndirilməsi və mütəxəssislərin sayının artırılması istiqamətində tədbirlər həyata keçirmək;

3.2.7. əmək bazarının tələblərinə və ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq ali, orta ixtisas və peşə təhsili müəssisələrinə tələbə qəbulu üzrə dövlət sifarişi yerlərinin sayını artırmaq;

3.2.8. peşə təhsili üzrə əmək bazarının tələblərinə cavab verən və nəticəəsaslı təhsil proqramlarını (kurikulumlarını) hazırlamaq, bu prosesə işəgötürənləri

(sahibkarları) cəlb etmək, peşə standartlarının, o cümlədən təlim standartlarının hazırlanmasını təmin etmək;

3.2.9. əmək bazarında işçi qüvvəsinin keyfiyyətini davamlı inkişaf edən iqtisadiyyatın tələblərinə uyğunlaşdırmaq, müasir tələblərə cavab verən rəqabətədavamlı kadr potensialının formalaşdırılması məqsədilə müasir təminatlı və yeni məzmunlu peşə təhsili mərkəzlərini yaratmaq;

3.2.10. valideyn himayəsindən məhrum olub sosial xidmət müəssisələrində yaşayan uşaqların oranı tərk etdikdən sonra təhsil almasına və iş yeri ilə təmin olunmasına kömək göstərmək;

3.2.11. ölkə və regionlar üzrə məşğulluq proqramlarının həyata keçirilməsi üçün ayrılmış vəsaitin səmərəli istifadə olunmasına nəzarəti gücləndirmək;

3.2.12. mövcud iş yerlərinin saxlanmasını və layiqli yeni iş yerlərinin yaradılmasını təmin edən işəgötürənlər üçün həvəsləndirici tədbirləri genişləndirmək;

3.2.13. əhalinin, xüsusilə işaxtaran və işsiz şəxslərin məlumatlandırılması istiqamətində reklam-informasiya işini genişləndirmək, yeni yaradılmış iş yerləri və vakansiyalar haqqında təfsilatlı informasiya bazasını yaratmaq və geniş ictimaiyyətə çatdırmaq;

3.2.14. əmək bazarının məşğulluq və işsizlik səviyyəsinin real vəziyyətinin düzgün qiymətləndirilməsi məqsədilə iqtisadi zonalar üzrə təhlil işlərini davam etdirmək;

3.2.15. əmək resurslarının daxili ərazi mobilliyini həvəsləndirən stimullar sisteminin gücləndirilməsi sahəsində məsləhətləşmələr aparmaq;

3.2.16. layiqli əməyin səviyyəsinin öyrənilməsi məqsədilə birgə tədqiqatlar aparmaq;

3.2.17. qeyri-formal məşğulluğun və əmək miqrasiyasının real vəziyyətinin öyrənilməsinə və onu yaradan səbəblərin aradan qaldırılmasına, eyni zamanda yaratdığı risklərlə bağlı ictimaiyyətin məlumatlandırılmasına dair işləri davam etdirmək;

3.2.18. sosial infrastrukturyönlü işləri inkişaf etdirmək, xalq tətbiqi sənətinin dirçəldilməsi və inkişafı, turizm istirahət zonalarının yaradılması və bu sahələrə investisiyaların artırılması hesabına əhalinin məşğulluq səviyyəsini artırmaq;

3.2.19. qeyri-formal məşğulluğun aşkar edilərək qarşısının alınmasında icbari tibbi sığortanın imkanlarından istifadə edilməsi məqsədilə tədbirlər görmək;

3.2.20. qeyri-formal məşğulluğun xarakterik olduğu iqtisadi fəaliyyət sahələrində (pərakəndə ticarət, iaşə, nəqliyyat, turizm xidməti və s.) qeydiyyatsız əmək fəaliyyətinin qarşısının alınması məqsədilə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və həmin sahələrdə fəaliyyəti gücləndirmək;

3.2.21. əmək bazarının təhlili və proqnozlaşdırılması mexanizmlərinin, metodlarının hazırlanması, strateji məşğulluq sahələrinin müəyyən edilməsi və kadr tələbatının proqnozlaşdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsini davam etdirmək;

3.2.22. sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluq imkanlarının artırılmasına yönəldilmiş özünüməşğulluq tədbirlərinin genişləndirilməsi ilə bağlı işlər görmək;

3.2.23. aktiv əmək bazarı proqramlarının keyfiyyət və çeşidini artırmaq, əhatə dairəsini genişləndirmək;

3.2.24. ölkədə əhali sakinliyinin inkişafı və demoqrafiya sahəsində tədqiqatlar aparmaq, proqnozlar hazırlamaq, təkmil proqnozlaşdırma metodologiyasının tətbiqi və bu sahədə kadr potensialının formalaşdırılması üzrə işlər həyata keçirmək;

3.2.25. ləğv edilən iş yerlərindən kənarlaşdırılan işçilərin sosial rifahının yaxşılaşdırılması məqsədilə proqramlar hazırlamaq və xüsusi imtiyazların verilməsini təmin etmək;

3.2.26. kənd yerlərində məşğulluq imkanlarını artırmaq, emal müəssisələrinin yaradılması ilə əhalinin həyat səviyyəsinin yüksədilməsinə şərait yaratmaq;

3.2.27. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 78-ci maddəsinin 2-ci hissəsinin sonuncu abzasına uyğun olaraq işçilərin ixtisarı zamanı ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda pensiya yaşına 2 ildən az qalmış işçilərin işdə saxlanılmasına üstünlük vermək.

## 4. Sosial müdafiənin gücləndirilməsi istiqamətləri

4.1. Tərəflər Azərbaycan Respublikası vətəndaşlarının sosial müdafiəsi üzrə hüquqlarının təmin edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirlər:

4.1.1. əhalinin sağlamlığının mühafizəsi üzərində, o cümlədən Azərbaycan Respublikasında əhalinin xəstələnmə hallarının minimuma endirilməsi, işçilərin kəskin və xroniki xəstəliklərin fəsadlarından daha az zərər görməsi məqsədilə hər il bütün işçilərin pulsuz icbari tibbi müayinədən keçirilməsini, dispanserizasiyasını təmin etmək və nəzarəti gücləndirmək;

4.1.2. İİV/QİÇS-ə, şəkərli diabet, hemofiliya, talassemiya, vərəm və digər xroniki xəstəliklərə tutulanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirləri davam etdirmək;

4.1.3. uşaq və gənclərin müdafiəsi, asudə vaxtlarının səmərəli keçirilməsi, sağlam həyat tərzi mədəniyyətinin formalaşdırılması istiqamətində zəruri tədbirlər görmək, onların istirahətini təmin etmək məqsədilə düşərgələr təşkil etmək;

4.1.4. iş yerlərində şəxslərin təbii və reproduktiv xüsusiyyətləri nəzərə alınmaqla, müasir tələblərə cavab verə biləcək sanitariya-gigiyena normalarını işləyib hazırlamaq;

4.1.5. müəssisə, təşkilat və idarələrdə işçilərin məzuniyyət hüququndan istifadə etmələrinə nəzarəti gücləndirmək;

4.1.6. əhaliyə şəxsi mənzil tikintisi üçün torpaq sahələrinin ayrılması prosesinin və mənzil tikintisi üçün kreditlərin verilməsi sisteminin təkmilləşdirilməsinə nəzarəti gücləndirmək;

4.1.7. uşaq əməyinin, məcburi əməyin və insan alverinin aradan qaldırılmasını təmin edən, əmək miqrasiyasını tənzimləyən dövlət sosial proqramlarını dəstəkləmək, birgə monitorinqlər təşkil etmək;

4.1.8. məktəbəqədər təhsil müəssisələrinin sayını çoxaltmaq, bu müəssisələrdə uşaq qidasının keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini davam etdirmək, hazır yemək təminatının əhatəsinin genişləndirilməsi ilə bağlı tədbirləri artırmaq;

4.1.9. məktəb tətilləri zamanı uşaqların istirahətinin səmərəli təşkili və əhatə dairəsinin genişləndirilməsi işini davam etdirmək, məktəbdənkənar fəaliyyətlər çərçivəsində dərnək məşğələlərinin, mədəni-kütləvi tədbirlərin, müsabiqələrin, idman yarışlarının keçirilməsi işlərinin miqyasını artırmaq;

4.1.10. təhsilalanların, xüsusilə aztəminatlı və həssas əhali qruplardan olan təhsilalanların sosial müdafiəsi üzrə tədbirləri davam etdirmək;

4.1.11. təhsil işçilərinin sosial müdafiəsi və fəaliyyətinin stimullaşdırılması istiqamətində tədbirləri davam etdirmək;

4.1.12. ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsilalanların yataqxana ilə təmin olunması məqsədilə tədbirləri davam etdirmək;

4.1.13. ölkənin şəhər və rayonlarında əlilliyi olan şəxslərin stasionar şəraitdə tibbi reabilitasiyasını genişləndirmək;

4.1.14. tibbi-sosial ekspertiza xidmətlərinin elektron texnologiyalar üzərində avtomatlaşdırılması işinin təkmilləşdirilməsini davam etdirmək;

4.1.15. sığorta-pensiya sisteminin maliyyə dayanıqlılığının uzunmüddətli proqnozlar əsasında təmin edilməsi, davamlı və dinamik inkişafına nail olunması

məqsədilə zəruri islahatları və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işləri davam etdirmək;

4.1.16. işəgötürənlər tərəfindən sosial sığorta haqlarının vaxtında və tam həcmdə köçürülməsi üzərində birgə nəzarəti gücləndirmək;

4.1.17. sığortaolunanların sanatoriya-kurort müalicəsi və istirahətlərinin təşkilinə ayrılan vəsaitin illik əsasda artırılması üçün sosial tərəfdaşlarla müzakirələr aparmaq;

4.1.18. məcburi dövlət sosial sığortası üzrə ödəmələrin avtomatlaşdırılmış qaydada təyin edilməsi, hesablanması və ödənilməsi istiqamətində tədbirlər görmək;

4.1.19. əmək şəraiti ağır, zərərli və təhlükəli olan istehsalatlarda əmək müqaviləsi bağlanılarkən işçilərin ilkin tibbi müayinədən, sonralar isə vaxtaşırı icbari tibbi müayinələrdən işəgötürən hesabına keçirilməsi ilə bağlı əmək qanunvericiliyinin tələblərinin icrasına nəzarəti gücləndirmək;

4.1.20. gender, yaş qrupları, inzibati rayonlar (bölgə, şəhər, rayon və kənd) formasında daha ətraflı statistik məlumatlar almaq və analitik potensialı gücləndirmək;

4.1.21. uşağın 3 yaşı tamam olanadək, ona bilavasitə qulluq edən valideynlərin birinin, yaxud ailənin başqa üzvünün qismən ödənişli sosial məzuniyyət müddətinin məzuniyyət hüququ verən əmək stajına daxil edilməsi istiqamətində müvafiq qanunvericilikdə dəyişikliklər etmək;

4.1.22. güzəştli ipoteka krediti və sosial mənzil almaq hüququ verilən şəxslərin siyahısına səhiyyə işçilərinin də əlavə edilməsi məsələsini sürətləndirmək;

4.1.23. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqinin genişləndirilməsi zərurətini nəzərə alaraq sığortaolunan şəxslərin sosial mənafeyini qorumaq məqsədilə birgə fəaliyyət göstərmək;

4.1.24. icbari tibbi sığortanın təminatı barədə maarifləndirmə işlərini davam etdirmək;

4.1.25. əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə müxtəlif kateqoriyalı məşğul şəxslərin məcburi dövlət sosial sığorta sistemi ilə əhatə olunmasını genişləndirmək;

4.1.26. əhalinin sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə, o cümlədən sağlam həyat tərzi üçün bədən tərbiyəsi və idmanın inkişafına birgə nəzarəti gücləndirmək;

4.1.27. üç yaşınadək uşağa qulluqla əlaqədar verilən müavinətin artırılması ilə bağlı tədbirlər görmək;

4.1.28. qulluq stajına görə əmək pensiyasına əlavələrin hesablanmasının təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

4.1.29. əlilliyi olan şəxslərin məşğulluq imkanlarını genişləndirmək, onların digər şəxslərlə bərabər səviyyədə əmək fəaliyyəti ilə məşğul olmaq, o cümlədən inklüziv və müyəssər iş şəraitində işləmək hüququnu təmin etmək, inklüziv məşğulluğun təşviqinə yönələn proqramlar hazırlamaq;

4.1.30. əmək münasibətlərində əlilliyə görə birbaşa və ya dolayısı ilə ayrıseçkiliyə yol verməmək, habelə kollektiv və əmək müqavilələrində digər işçilərlə münasibətdə əlilliyi olan şəxslərin əmək hüquqlarının məhdudlaşdırılması hallarına yol verməmək;

4.1.31. müəssisənin ləğv edilməsi və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə bağlanılmış əmək müqaviləsinə işəgötürən tərəfindən xitam verilməsi hallarına yol verilməsinin qarşısının alınması istiqamətində tədbirlər görmək;

4.1.32. işəgötürən tərəfindən istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bununla əlaqədar əlilliyi olan işçiləri, onların arzusu ilə və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq hazırlanmış Fərdi Reabilitasiya Proqramının icrası olaraq uyğunlaşdırılmış işlə təmin etmək;

4.1.33. əlilliyi olan şəxslərin sağlam, təhlükəsiz əmək şəraiti ilə təmin edilməsini, əmək şəraitinin xüsusiyyətlərini, əməkhaqqının ödənilməsini, iş və istirahət vaxtını, məzuniyyət müddətini Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq həyata keçirmək;

4.1.34. əlilliyi olan şəxslərin iş yerinin onlara uyğunlaşdırılmasını, həmin şəxslərin tələbatına uyğun iş yerləri ilə təmin edilməsini təşviq etmək və ağlabatan uyğunlaşdırma tədbirlərinin işəgötürənlər tərəfindən həyata keçirmək;

4.1.35. ixtisaslaşdırılmış tibb müəssisələrində çalışan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə tədbirlər görmək;

4.1.36. işəgötürənlər tərəfindən "İcbari tibbi müayinələrin təkmilləşdirilməsi barədə" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 2012-ci il 13 dekabr tarixli 46 nömrəli Qərarının 1 nömrəli əlavəsində qeyd edilən zərərli və təhlükəli istehsalat amilləri (faktorları) olan iş yerlərində və həmin qərarın 2 nömrəli əlavəsində nəzərdə tutulan işlərdə çalışan işçilərin icbari ilkin və dövri tibbi müayinələrinin keçirilməsinin təmin edilməsi üçün tədbirlər görmək;

4.1.37. yarana biləcək böhran vəziyyətlərində (iqtisadi böhran, pandemiya və s.) aztəminatlı və yoxsulluğa həssas təbəqənin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər görmək;

4.1.38. çətin həyat şəraitində olan şəxslərin keyfiyyətli sosial xidmətlərə əlçatanlığının təmini, müasir tələblərə cavab verən sosial xidmət sisteminin, bu sahədə ixtisaslı kadr potensialının yaradılması, müvafiq beynəlxalq standartların və innovativ texnologiyaların tətbiqi istiqamətində işlər aparmaq;

4.1.39. işğaldan azad edilmiş ərazilərdə əmək resurslarının səmərəli idarə olunması məqsədilə sosial sığorta və digər güzəştlərin tətbiqi ilə bağlı tədbirləri davam etdirmək;

4.1.40. vətəndaşlara pensiya təminatı ilə bağlı göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və şəffaflığın artırılması məqsədilə innovativ həllərin tətbiqi dairəsini genişləndirmək;

4.1.41. ünvanlı dövlət sosial yardımı (ÜDSY) almaq üçün elektron platformanın yenilənməsi istiqamətində işlər aparmaq;

4.1.42. qeyri-dövlət pensiya təminatı sisteminin yaradılması istiqamətində tədbirlər görmək;

4.1.43. təhsil sisteminin tənzimlənməsinin və dövlət təhsil sektorunun idarə edilməsinin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsini, təhsil pillələri və səviyyələrinin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasını davam etdirmək;

4.1.44. narkologiya və psixiatriya müəssisələrinin, habelə QİÇS-lə mübarizə mərkəzlərinin işçilərinin əməkhaqlarının artırılması istiqamətində müvafiq tədbirlər görmək;

4.1.45. küçə və bazar ticarəti ilə məşğul olan şəxslər üçün yerli icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən layiqli iş şəraitinin yaradılması istiqamətində müvafiq işlər aparmaq;

4.1.46. Azərbaycan Respublikasının regionları üzrə sosial xidmətlərə olan ehtiyacın müəyyən edilməsi və dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin şəbəkəsinin genişləndirilməsi məqsədilə müvafiq tədbirlər görmək;

4.1.47. sosial xidmət sahəsində korporativ sosial məsuliyyətin inkişafını təmin etmək və sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə özəl sektoru cəlb etmək;

4.1.48. çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin aparılması zamanı tətbiq olunan "Sosial işin idarə edilməsi" sistemi ilə bağlı sosial işçilərin hazırlığını təşkil etmək;

4.1.49. çətin həyat şəraitində olan uşaqlarla bağlı layihələrin qeyri-dövlət sektoru tərəfindən həyata keçirilməsini təşviq etmək;

4.1.50. əlilliyi olan uşaqların övladlığa götürülməsini təşviq etmək;

4.1.51. əlilliyi olan uşaqların asudə vaxtlarının səmərəli təşkilinin təmin edilməsi, onların bədən tərbiyəsi və idmana cəlb edilməsi, əlilliyi olan uşaqlar üçün ixtisaslaşdırılmış idman-sağlamlıq mərkəzlərinin yaradılması və əlilliyi olan istedadlı uşaqların aşkar edilməsi məqsədilə müvafiq tədbirlər görmək;

4.1.52. baxımsız və kimsəsiz uşaqların sosial reabilitasiyası, xüsusilə onların peşə təhsilinə yönləndirilməsi ilə bağlı tədbirlər görmək.

## 5. Əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik

5.1. Əmək hüquqlarının müdafiəsini, əməyin mühafizəsini, texniki və ekoloji təhlükəsizliyi əməkdaşlığın əsas istiqamətlərindən biri kimi qiymətləndirərək, Tərəflər aşağıdakı öhdəlikləri öz üzərlərinə götürürlər:

5.1.1. ekologiya və ətraf mühitin mühafizəsi istiqamətində yeni təkliflər hazırlamaq, dövlət nəzarətini gücləndirmək;

5.1.2. iş yerlərini işçilərin əmək şəraitinə müvafiq olaraq sağlam həyat tərzinə uyğunlaşdırmaq istiqamətində tədbirlər görmək;

5.1.3. əməyin mühafizəsi sahəsində əsas məqsədlərə çatmaq üçün Milli Strategiyanın hazırlanmasını və qəbul edilməsini təmin etmək;

5.1.4. işin (xidmətlərin) görülməsi zamanı istifadəsi qadağan olunan kimyəvi, radioaktiv və digər yüksək təhlükə mənbəli maddələrin siyahısını hazırlamaq;

5.1.5. əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması, ixtisaslarının artırılması, təcrübə mübadiləsinin aparılması üçün şərait yaratmaq;

5.1.6. əməyin mühafizəsi tələblərinin gücləndirilməsi məqsədilə əmək qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq;

5.1.7. Beynəlxalq konvensiyaların tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Əmək Məcəlləsinin “Əməyin mühafizəsi” bölməsinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

5.1.8. əmək şəraiti zərərli və təhlükəli olan istehsalatlarda işləyənlər üçün kollektiv və fərdi mühafizə vasitələri istehsalının imkanlarını araşdırmaq;

5.1.9. iş yerlərində, o cümlədən sənaye müəssisələrində insanların sağlamlığının qorunması məqsədilə ekoloji təhlükəsizliyi təmin etmək;

5.1.10. əməyin təhlükəsizliyi normaları və standartları üzrə milli informasiya sistemini yaratmaq;

5.1.11. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq işəgötürən tərəfindən işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını təmin etmək üçün nəzarəti gücləndirmək;

5.1.12. işçilərə bədən tərbiyəsi və idmanla, o cümlədən iş rejimi şəraitində və işdən sonrakı reabilitasiya və peşəkar-tətbiqi məşqlərlə məşğul ola bilmələri üçün lazımi şərait yaratmaq;

5.1.13. işçilərə və onların ailə üzvlərinə bədən tərbiyəsi və idmanla məşğul olmaq üçün balanslarında olan idman obyektləri və bazalarını təmənnasız təqdim etmək, bu idman obyektlərinin və bazaların saxlanılmasını təmin etmək;

5.1.14. işçilərə əmək qabiliyyətlərinin yüksəldilməsi və sağlamlıqlarının möhkəmləndirilməsi məqsədilə istirahət evləri, turist bazaları və sanatoriya-kurort müəssisələrinə müvafiq göndərişlər (yollayışlar) vermək;

5.1.15. işçilərin asudə vaxtlarının səmərəli təşkili üçün davamlı olaraq mədəni-kütləvi, sosial, turist-ekskursiya və idman tədbirlərində iştirakını təmin etmək;

5.1.16. işçilərin, xüsusilə gənclərin, əmək qanunvericiliyi və əməyin mühafizəsi norma və qaydaları barədə mütəmadi məlumatlandırılması məqsədilə respublikanın müxtəlif bölgələrində seminarlar keçirmək;

5.1.17. kənd təsərrüfatı məhsullarının istehsalının ekoloji normalara uyğunluğunu təmin etməklə, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalını təşviq etmək;

5.1.18. ekologiya, ətraf mühit, geologiya və geodeziya sahələrində kadr hazırlığı və təminat sistemini təkmilləşdirmək, gənclərin bu sahədə ixtisas və texniki peşə hazırlığının artırılması istiqamətində görülən işləri davam etdirmək;

5.1.19. əmək qanunvericiliyinin təkmilləşdirilməsini davam etdirmək;

5.1.20. əhalinin sağlamlığı və ətraf mühitin qorunması məqsədilə yaşıllıqların salınması və onlara qulluq edilməsi, ərazilərin məişət tullantılarından təmizlənməsi üçün əmək kollektivlərinin iməciliklərini təşkil etmək;

5.1.21. istehsalatda, iş yerlərində ilkin tibbi yardım zamanı istifadə olunacaq dərman və tibb vasitələrin siyahısının hazırlanması və təsdiq edilməsi üçün tədbirlər görmək;

5.1.22. əmək qanunvericiliyinin tələblərinə riayət olunmasını təşviq edən normativlərin təkmilləşdirilmək;

5.1.23. qanunvericiliklə müəyyənləşdirilən imkanlardan yararlanmaqla işçilərin qanuni hüquq və maraqlarını qorumaq, işçilər üçün əməyin ədalətli ödənilməsi hüququnun səmərəli həyata keçirilməsini, iş yerlərinin attestasiyası keçirilməklə normal əmək şəraitinin yaradılmasını təmin etmək, kollektiv müqavilə və sazişlərdə öhdəliklərin icrasına nəzarət və icra edilməməsinə görə məsuliyyət prinsipini gücləndirmək.

## 6. İqlim dəyişiklikləri və uyğunlaşma tədbirləri

6.1. İqlim dəyişiklikləri və ona uyğunlaşma tədbirlərinin zəruriliyini nəzərə alaraq, Tərəflər aşağıdakı öhdəlikləri öz üzərlərinə götürürlər:

6.1.1. yaşıl iqtisadiyyata ədalətli keçidi təmin etmək və iqlim dəyişikliklərinin əməyə mənfi təsirlərinin azaldılması istiqamətində birgə səylər göstərmək;

6.1.2. yaşıl iqtisadiyyata keçidlə bağlı yaranan yeni peşə və ixtisaslar üzrə kadr hazırlığının stimullaşdırılması məqsədilə peşəkar ixtisasartırma və fasiləsiz öyrənmə proqramlarının tətbiqini genişləndirmək;

6.1.3. yaşıl iqtisadiyyata keçid prosesində əhalinin həssas qruplarının maraqlarının qorunması üçün "ədalətli keçid" prinsiplərini tətbiq etmək və bu məqsədlə üçtərəfli sosial dialoqu gücləndirmək;

6.1.4. iqlim dəyişikliyi ilə əlaqədar əmək fəaliyyəti zamanı insan sağlamlığına təsir edən zərərli və ya təhlükəli istehsal amillərinin müəyyən edilməsi istiqamətində işlər görmək;

6.1.5. iqlim dəyişikliyi fonunda əməyin mühafizəsinə təsir edən yeni riskləri qiymətləndirmək və bu risklərə uyğun hüquqi və texniki tədbirləri hazırlamaq;

6.1.6. ekoloji təhlükəsizlik sahəsində müəssisələrin fəaliyyətinə ictimai nəzarət imkanlarını artırmaq və vətəndaş cəmiyyətinin bu sahədə iştirakını genişləndirmək;

6.1.7. yaşıl texnologiyalar və istehsal metodlarının tətbiqi zamanı əməyin təhlükəsizliyi və sağlamlaşdırılması üzrə yeni riskləri dəyərləndirmək və uyğun normativ hüquqi bazanı formalaşdırmaq;

6.1.8. ətraf mühitə minimal təsir göstərən əmək şəraitlərinin yaradılması, ekoloji cəhətdən təhlükəsiz istehsal sahələrində məşğulluğun artırılması məqsədilə işəgötürənlərin stimullaşdırılmasını təşviq etmək;

6.1.9. iş yerlərində enerji səmərəliliyini artırmaq, su, elektrik, xammal sərfiyyatına qənaət edən texnologiyaların tətbiqi üzrə maarifləndirmə işləri həyata keçirmək;

6.1.10. "Yaşıl keçid və əmək hüquqları üzrə Milli Tədbirlər Planı"nın hazırlanması təşəbbüsünü irəli sürmək və Beynəlxalq Əmək Təşkilatının "Ədalətli keçid üzrə Təlimatları"na uyğunlaşdırmaq;

6.1.11. karbon emissiyalarının azaldılması məqsədilə üçillik “Dekarbonizasiya və Adaptasiya Planı”nın hazırlanmasını təmin etmək, həmçinin “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı ilə təsdiq edilmiş “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü Meyarları”na uyğun olaraq orta və iri sahibkarlıq subyektlərində iqlim dəyişikliklərinə uyğun fəaliyyəti təşviq etmək;

6.1.12. indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan “yaşıl” texnologiyaların tətbiqini genişləndirmək;

6.1.13. bərpa olunan enerji mənbələrindən istifadə etmək, yeni dayanıqlı enerji mənbələrinə üstünlük vermək;

6.1.14. elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payını artırmaq;

6.1.15. elektrik mühərrikli nəqliyyat vasitələrinin batareyalarındakı (istismar müddəti bitmiş, zədələnmiş) lazımi materialların və enerjinin ayrılaraq təkrar istifadə üçün yararlı hala salınması məqsədilə, onların utilizasiyasının qanunvericiliklə tənzimlənmə qaydalarını müəyyənləşdirmək;

6.1.16. növbəti illərdə iqtisadi və demoqrafik artım səbəbilə ətraf mühitə təsir edə bilən riskləri azaltmaq;

6.1.17. iqtisadi artımla ekoloji mühitin tarazlığını təmin etmək;

6.1.18. ölkədə yararsız torpaq sahələrini dövriyyəyə cəlb etmək və mövcud resursları bərpa etmək;

6.1.19. ölkənin keyfiyyətli suya tələbatını su resurslarından səmərəli istifadəsini təşviq etmək;

6.1.20. su resurslarının düzgün idarəedilməsi, sulama səmərəliliyinin artırılması (damcı suvarma, smart su idarəetməsi və s.), habelə yağış suyunun toplanılması üçün nəzərdə tutulan texnologiyaların tətbiqini təşviq etmək;

6.1.21. işçilərin yaşıl bacarıqlar, rəqəmsal savadlılıq və ədalətli keçid təşəbbüslərinə uyğun hazırlanmasına dəstək vermək.

## 7. Rəqəmsallaşma və süni intellekt

7.1. Rəqəmsallaşma və süni intellekt sahəsində qlobal texnoloji inkişafların sürətini və bu istiqamətdə koordinasiyalı fəaliyyətin zəruriliyini nəzərə alaraq, Tərəflər aşağıdakı öhdəlikləri öz üzərlərinə götürürlər:

7.1.1. Sənaye, aqrar, xidmət və digər sahələrdə rəqəmsal transformasiyanı, avtomatlaşdırma və süni intellekt həllərinin tətbiqini təşviq etməklə əmək şəraitinin və işçilərin yeni texnologiyalara uyğunlaşma imkanlarının artırılmasına dəstək göstərmək;

7.1.2. dövlət xidmətləri sahəsində rəqəmsallaşdırma prosesinin sürətləndirilməsinə dəstək vermək;

7.1.3. “Əmək və məşğulluq” altsistemində kollektiv müqavilələrin elektron formada bağlanılması və icraatın izlənilməsini təmin edən yeni texniki imkanlar yaratmaq;

7.1.4. süni intellekt texnologiyaları tətbiq edilməzdən əvvəl işəgötürənlər tərəfindən “Əmək bazarına təsir qiymətləndirilməsi”nin aparılmasını və süni intellektin işçi qüvvəsinə, əməyin təşkili və sosial nəticələrinə təsirinin qiymətləndirilməsini təmin etmək;

7.1.5. avtomatlaşdırma və yeni texnologiyaların tətbiqi nəticəsində əmək bazarında iş yerlərinin azalması təhlükəsini qabaqcadan qiymətləndirmək məqsədilə işəgötürənlər tərəfindən risk qrupunda olan işçilərin siyahısını müəyyənləşdirmək və illik hesabatın hazırlanmasını təşviq etmək;

7.1.6. avtomatlaşdırma və yeni texnologiyaların tətbiqi nəticəsində ixtisar təhlükəsi altında olan işçiləri dövlət məşğulluq qurumları vasitəsilə uyğun yeni peşə kurslarına cəlb etmək;

7.1.7. ölkədə istehsal olunan süni intellekt sistemlərinin kibertəhlükələrə qarşı dayanıqlılığını artırmaq;

7.1.8. rəqəmsal təhsil, data elmi və maşın öyrənməsi üzrə təhsil proqramlarını genişləndirmək və mövcud dövlət müəssisələrinin imkanlarından istifadə etmək;

7.1.9. bazar ehtiyaclarına xidmət edən süni intellekt təlimi və istedad mərkəzlərinin fəaliyyətlərinin dövlət və özəl, habelə elmi tədqiqat müəssisələrinin tərəfdaşlığı əsasında təşkili istiqamətində tədbirlər həyata keçirmək və mövcud dövlət müəssisələrinin imkanlarından istifadə etmək.

## 8. Beynəlxalq hüquq və öhdəliklər

8.1. Beynəlxalq qanunvericilik və mövcud öhdəliklərin icrasının təmin edilməsi zərurətini nəzərə alaraq, Tərəflər aşağıdakı öhdəlikləri öz üzərlərinə götürürlər:

8.1.1. Beynəlxalq Əmək Təşkilatının 1988-ci ildə qəbul olunmuş “Məşğulluğa kömək və işsizlikdən müdafiə haqqında” 168 nömrəli Konvensiyasının ratifikasiya imkanlarını araşdırmaq;

8.1.2. Beynəlxalq Əmək Təşkilatının 190 nömrəli “İş yerində zorakılıq və təcavüzə qarşı mübarizə haqqında” və 191 nömrəli “Təhlükəsiz və sağlam iş mühiti (nəticəvi düzəlişlər) haqqında” Konvensiyalarının ratifikasiya imkanlarını araşdırmaq;

8.1.3. Beynəlxalq Əmək Təşkilatının “Kənd təsərrüfatında əməyin təhlükəsizliyi və gigiyenası haqqında” 2001-ci il tarixli 184 nömrəli Konvensiyasının ratifikasiyasını sürətləndirmək;

8.1.4. Beynəlxalq Əmək Təşkilatının 155 nömrəli “Əməyin Təhlükəsizliyi və Gigiyenası haqqında” Konvensiyanın tələblərinə uyğun olaraq Milli standartların hazırlanması üçün tədbirlər görmək;

8.1.5. sosial tərəfdaşlığın inkişafı məqsədilə əmək mübahisələrinin qarşısının alınması üzrə qərarların qəbulu prosesində beynəlxalq təcrübənin tətbiqini təmin etmək;

8.1.6. Beynəlxalq Əmək Təşkilatının transmilli şirkətlərin fəaliyyətinin və sosial siyasətinin prinsipləri haqqında üçtərəfli Bəyannaməsinə əsasən, transmilli şirkətlərdə, xarici sərmayə ilə işləyən və müştərək müəssisələrdə çalışan işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması ilə bağlı birgə iş aparmaq.

## 9. Sosial tərəfdaşlıq və Tərəflərin fəaliyyətinin əlaqələndirilməsi

9.1. Tərəflər hesab edirlər ki, sosial tərəfdaşlığın inkişaf etdirilməsi, əsas sosial və iqtisadi məsələlər, əmək münasibətlərinin tənzimlənməsi üzrə qərarlar qəbul edilərkən sosial tərəfdaşlığın imkanlarından daha səmərəli istifadə olunması zəruridir.

9.2. Bu məqsədlə Tərəflər aşağıdakı öhdəlikləri öz üzərlərinə götürürlər:

9.2.1. sosial-iqtisadi siyasətin əsas istiqamətləri üzrə müntəzəm məsləhətləşmələr aparmaq, sosial tərəfdaşlardan ibarət Üçtərəfli Komissiyanın fəaliyyətini gücləndirmək, onun əsasnaməsini təkmilləşdirmək, fəaliyyət istiqamətləri və tərkibini genişləndirmək, sosial-iqtisadi bloku əhatə edən dövlət orqanlarının həmin Komissiyada təmsil olunmasını təmin etmək;

9.2.2. sosial-əmək münasibətləri, əhalinin məşğulluğu, miqrasiya, sosial təminat, biznes mühiti və sahibkarlığın inkişafı sahəsində milli proqram, qanun və digər normativ hüquqi aktların layihələrini müzakirə etmək, bu sahədə hazırlanan qanunvericilik layihələrinin müzakirəsi zamanı rəy və təkliflərin alınması üçün sosial tərəfdaşlara təqdim etmək;

9.2.3. "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq işçilərin əmək, sosial və iqtisadi hüquqlarına dair qanun layihələri və digər normativ aktlar hazırlanarkən həmkarlar ittifaqları respublika birliyinin rəyini almaq;

9.2.4. "İşəgötürənlər və sahibkar birlikləri haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsinə səy göstərmək;

9.2.5. işəgötürənlər təşkilatlarının korporativ sosial məsuliyyət sahəsində təşəbbüslərini hərtərəfli dəstəkləmək, "İlin ən yaxşı sosial layihəsi", "Ən yaxşı kollektiv müqavilə", "Ən yaxşı sosial-məsuliyyətli müəssisə", "Sahənin ən təhlükəsiz iş yeri", "Peşənin ən yaxşı ustası", "İlin peşəkar gənci" və "Gənclərlə iş üzrə ən yaxşı ilk həmkarlar ittifaqı təşkilatı" müsabiqələrinin birgə təşkil edilməsini nəzərdən keçirmək;

9.2.6. dövlət əmlakının özəlləşdirilməsi zamanı əmək kollektivlərinin maraqlarını tam nəzərə almaq məqsədilə müəssisələrdə yaradılan komissiyaların tərkibinə həmkarlar ittifaqı nümayəndələrinin daxil edilməsini təmin etmək;

9.2.7. sosial tərəfdaşlıq münasibətlərinin təkmilləşdirilməsi, qanunvericilik və institusional bazanın gücləndirilməsi məqsədilə "Sosial tərəfdaşlıq haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini hazırlamaq və qəbul edilməsi üçün birgə səylər göstərmək;

9.2.8. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 89 nömrəli Fərmanının icrasından irəli gələn tədbirlərin davam etdirilməsinə birgə səylər göstərmək;

9.2.9. platforma iqtisadiyyatı işçilərinin əməyinin mühafizəsi, sosial təminatı və minimum əməkhaqqı səviyyəsində gəlir əldə etmək imkanlarının təmin edilməsi üçün sosial tərəfdaşlarla birlikdə məqsədyönlü tədbirlər həyata keçirmək;

9.3. Tərəflər həmkarlar ittifaqları və işəgötürənlərin fəaliyyətinə hər hansı qanunsuz müdaxilənin yolverilməzliyi barədə milli qanunvericiliyin tələblərinə riayət olunmasını təmin etməklə, habelə həmkarlar ittifaqlarının öz fəaliyyətlərini dövlət orqanlarından, müəssisələrdən, siyasi partiyalardan və ictimai birliklərdən asılı olmadan həyata keçirdiyini nəzərə alaraq, iş yerlərində onlara qanunla müəyyən edilmiş hüquq və vəzifələrini maneəsiz yerinə yetirmək məqsədilə müvafiq dəstək göstərəcəklər.

9.4. Tərəflər aşağıdakı məsələlərin həllinə kömək göstərməyi öhdəlik kimi qəbul edirlər:

9.4.1. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublikanın ərazisində yerləşən müəssisələrdə sosial-əmək münasibətlərini sosial tərəfdaşlıq prinsipləri əsasında tənzimləmək;

9.4.2. iqtisadi imkanlar nəzərə alınmaqla, əmək qanunvericiliyinə nisbətən daha geniş əlavə əmək, sosial-iqtisadi, maddi-məişət və digər münasibətləri əhatə edən sahə (tarif) və ərazi (rayon) kollektiv sazişlər və kollektiv müqavilələr bağlamaq və həyata keçirmək, həmin saziş və müqavilələrin icrasını təmin etmək üçün sahə və ərazi üçtərəfli komissiyaları yaratmaq;

9.4.3. həmkarlar ittifaqına üzvlük haqlarının idarə, təşkilat və müəssisələrin mühasibatlığı vasitəsilə köçürmə yolu ilə ödənilməsinə razılıq vermək, köçürmələri əməkhaqlarının ödənilməsi ilə eyni vaxtda aparmaq;

9.4.4. işəgötürənlər və sahibkarların təşkilatlanmasını, onların biznes assosiasiyaları formasında institusional fəaliyyətini stimullaşdırmaq məqsədilə Tərəflər, işəgötürənlər (sahibkarlar) birliklərinə onların üzvləri tərəfindən ödənilən üzvlük haqlarının həmin üzvlərin gəlirindən (mənfəətindən) çıxılan xərclərə aid edilməsi barədə müvafiq tədbirlərin hazırlanmasına səylər göstərmək;

9.4.5. Sahə (tarif), ərazi (rayon) kollektiv sazişlərdə və kollektiv müqavilələrdə müəssisə və təşkilatlarda işləyənlərin müalicə və istirahətlərinin təmin olunması, onlara maddi yardım göstərilməsi üçün həmkarlar ittifaqına ayırmalar edilməsinin nəzərə alınmasını tövsiyə etmək;

9.4.6. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə, şəhid ailələrinə respublika ərazisində yerləşən sanatoriya-kurort müalicəsi və istirahət mərkəzlərinə veriləcək yollayışların ümumi məbləğinin 15 faizinin işəgötürən tərəfindən ödənilməsini tövsiyə etmək;

9.4.7. sahə kollektiv sazişlərin və kollektiv müqavilələrin bağlanılmasına birgə nəzarətin gücləndirilməsini və bu sənədlərin elektron bazasının yaradılmasını təmin etmək;

9.4.8. Beynəlxalq Əmək Təşkilatının hazırladığı Sosial dialoq institutları üçün özünüqiymətləndirmə metodu üzrə hazırlanan tədbirlər planı ilə bağlı işlərin icra edilməsinə nəzarət etmək.

9.5. Tərəflər nəzərə alırlar ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sosial tərəfdaşlar tərəfindən razılaşdırılmış göstəricilər üzrə əhalinin həyat səviyyəsinin statistik müşahidəsini daim həyata keçirir və Sazişin əlavəsində əks olunan göstəricilər üzrə ildə iki dəfə (avqust və fevral aylarında) Tərəflərə məlumat verir.

9.6. Tərəflər sosial-əmək və iqtisadi münasibətlər sahəsində yaranan kollektiv əmək mübahisələrinin (münaqişələrinin) tənzimlənməsi üçün onlardan asılı olan bütün zəruri tədbirləri həyata keçirir, bu sahədə infrastrukturun təkmilləşdirilməsini və birgə əməkdaşlığı təşkil edirlər.

9.7. Hər bir Tərəf qəbul olunmuş öhdəliklərin icrasını təmin edən tədbirlər hazırlayır.

9.8. Tərəflər götürdükləri öhdəlikləri yerinə yetirmədikdə, qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

9.9. Sazişin icrasına nəzarəti Tərəflərin müvafiq komissiyaları həyata keçirir və nəticələr hər ilin yekunlarına görə müzakirə edilir.

9.10. Sazişdə dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı əsasında edilir.

9.11. Saziş 2026-2028-ci illər üçün bağlanılır və imzalandığı gündən qüvvəyə minir. Yeni danışıqlar qüvvədə olan Sazişin müddəti başa çatanadək bitmədiyi təqdirdə, bu Sazişin müddəti Tərəflərin razılığı ilə 3 (üç) ayadək uzadıla bilər.

9.12. Sazişin icrası və sosial-əmək münasibətlərinin tənzimlənməsi üzrə Tərəflərin fəaliyyətini işıqlandırmaq məqsədilə Tərəflər sosial tərəfdaşlığın inkişafına həsr edilmiş materialları media vasitəsilə yayırlar.

9.13. Sazişə daxil edilmiş müddəalar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, mülkiyyət formasından asılı olmayaraq, respublika ərazisində fəaliyyət göstərən bütün müəssisə, idarə və təşkilatlara şamil edilir.

Baş Kollektiv Sazişə

əlavə

**Əsas sosial-iqtisadi göstəricilər**

- Ümumi Daxili Məhsul (milyon manatla).
- Ümumi Daxili Məhsulun artım sürəti (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə) - (hər il mayın ikinci ongünlüyü).
- Əsas kapitala investisiyaların Ümumi Daxili Məhsulda payı (faizlə).
- İdman və turizm sektorlarına yönəldilmiş investisiyaların həcmi (min manatla).
- Sosial-mədəni tədbirlərə dövlət büdcəsindən ayrılan xərclər (min manatla).
- Daimi əhalinin sayı (min nəfər) - (hər il mayın ikinci ongünlüyü).
- Doğulanda gözlənilən ömür uzunluğu (yaş sayı) - (hər il may ayının ikinci ongünlüyü).
- Doğumun ümumi əmsalı (əhalinin hər 1000 nəfərinə).
- Ölümün ümumi əmsalı (əhalinin hər 1000 nəfərinə).
- Əhalinin təbii artım əmsalı (əhalinin hər 1000 nəfərinə).
- Əhalinin hər nəfərinə düşən gəlirlər (manatla).
- Əhalinin sərəncamında qalan gəlirlərin real artım sürəti (əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə).
- Orta aylıq əməkhaqqı:
  - nominal ifadədə (manatla və əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə);
  - real ifadədə (əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə);
  - iqtisadi fəaliyyət növləri üzrə (manatla).
- Ümumi Daxili Məhsulda əmək ödənişlərinin xüsusi çəkisi (faizlə).
- Təyin olunmuş pensiyalar (hər il martın üçüncü ongünlüyü):
  - orta aylıq məbləğ (manatla);
  - nominal ifadədə (manatla və əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə);
  - real ifadədə (əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə).
- İstehlak qiymətləri indeksi (faizlə).
- Ev təsərrüfatlarının istehlak xərclərində qida məhsullarına sərf olunan məbləğ (ayda adambaşına, manatla).
- İqtisadiyyatda məşğul olanların sayı (min nəfərlə).
- İşçi qüvvəsinin sayı (min nəfərlə).
- Məşğul əhalinin bölgüsü (min nəfərlə):

- məşğulluq statusu üzrə (hər il iyunun ikinci ongünlüyü);
- iqtisadi fəaliyyət növləri üzrə.

- İşsiz əhalinin sayı (min nəfərlə).
- Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı (min nəfərlə).
- Bir iş yeri vakansiyasına düşən qeydiyyata alınmış işsiz şəxslərin sayı (nəfərlə).
- İstehsalatda xəsarət alanların və ölənlərin sayı (nəfərlə):
  - onlardan ölənlərin sayı.
- Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində işləyənlərin sayı (nəfərlə).
- Əsas növlər üzrə peşə xəstəlikləri (hər il iyunun ikinci ongünlüyü).
- Layiqli əməyə dair mövcud göstəricilər.

Məşğul əhalinin sayında muzdla işləyənlərin xüsusi çəkisi (faizlə), o cümlədən qadınların (hər il iyunun ikinci ongünlüyü).